*Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma, eyni zamanda, çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız.*

**Heydər ƏLİYEV**
**Ümummilli lider**



# Milli prokurorluq orqanlarının formalaşması və inkişafı ümummilli liderin adı ilə bağlıdır

**Ümummilli lider Heydər Əliyev Azərbaycana rəhbərliyi illərində dövlət quruculuğu və idarəetmə prosesini daim diqqətdə saxlayaraq, hər bir strukturun, o cümlədən, prokurorluq orqanlarının fəaliyyətinə mühüm önəm verib. Dahi şəxsiyyət bu sistemdə sağlam mənəvi mühitin formalaşması istiqamətində prinsipial addımlar atıb, cinayətkarlığa, xüsusən rüşvətxorluq və korrupsiya kimi ağır cinayətlərə qarşı genişmiqyaslı və səmərəli tədbirlər həyata keçirib. Məhz elə bunun nəticəsi olaraq ötən əsrin 70–80-ci illərində ulu öndərin "Qoy ədalət zəfər çalsın!" çağırışı cinayətkarlıqla mübarizənin leytmotivinə çevrilib.**

Yeri gəlmişkən, xatırladım ki, ümummilli lider həmin çağırışda – "Literaturnaya qazeta"nın 18 noyabr 1981-ci il tarixli 47-ci sayında dərc edilən "Qoy ədalət zəfər çalsın!" sərlövhəli məşhur müsahibəsində deyib: "Mən qeyd etmək istərdim ki, "qanunçuluq" dedikdə biz Cinayət Məcəlləsindən çox bizim cəmiyyətin mənəvi məcəlləsini nəzərdə tuturuq. Və bu nöqteyi-nəzərdən hüquq pozuntuları özlüyündə, onların profilaktikası yalnız hüquqi məsələ deyil. Necə ki, söhbət, ilk növbədə, insan uğrunda mübarizədən, sovet adamının hüquqlarına hörmətlə yanaşılmasından, ləyaqətinin və şərəfinin qorunmasından, onda ən yaxşı vətəndaş keyfiyyətlərinin, yüksək mənəvi prinsiplərin tərbiyə olunmasından gedir".

Heydər Əliyev bax, elə buna görə də o dövrdə mənəvi mühitin sağlamlaşdırılması, formalaşması üçün, ilk növbədə, ali hüquq təhsilinin cəmiyyətin bütün təbəqələrinin mənafeyinə cavab verən prinsiplər əsasında qurulmasını önə çəkib, vətənpərvər, istedadlı və vicdanlı hüquqşünas kadrların hazırlanması məsələsinin uğurlu həllinə nail olub. Bununla da prokurorluq orqanlarının mənəviyyatlı, yüksək peşəkarlığa, milli dəyərlərə və hüquqi dövlətin prinsiplərinə hörmətlə yanaşan kadrlarla komplektləşdirilməsi reallaşıb. Ulu öndər Azərbaycanın prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunan təntənəli yığıncaqda həmin tarixi gerçəkliyi xatırladaraq deyib: "Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır".

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin sonrakı dövründə də sistemə qulluğa yeni qəbul olunan şəxslərin seçilməsi, habelə analitik düşünmə və yüksək təşkilatçılıq qabiliyyəti olan, təşəbbüskarlığı ilə fərqlənən prokurorluq işçilərinin irəli çəkilməsi ədalətlilik və obyektivlilik prinsipləri əsasında gerçəkləşdirilib. Bütün bunlarla bərabər, əməkdaşlara qarşı tələbkarlıq artırılıb, əmək və icra intizamına nəzarət gücləndirilib. Kadr siyasəti həyata keçirilərkən ümummilli liderin aforizmə çevrilən sözləri – "Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu, yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir", – meyarı diqqətdə saxlanılıb.

Burada tarixi bir məqamı da xatırlatmaq istərdim. Azərbaycanda dövlət müstəqilliyinin bərpasının ilk illərində xalqımız çox ağır sınaqlarla üzləşmiş, cəmiyyətimizdə qanunçuluğun əsasları ciddi şəkildə zəifləmiş, cinayətkarlıq halları görünməyən səviyyəyə çatmışdı. Həmin vaxt hakimiyyət dairələrində nəzərəçarpan siyasi naşılıq, səriştəsizlik ölkədə xaosa, hərc-mərcliyə, özbaşınalığa gətirib çıxarmış, müstəqilliyimizin itirilmək təhlükəsi yaranmışdı. Təbii ki, bu başıpozuqluq prokurorluq orqanlarına da sirayət etmişdi. Sistemdə qeyri-sağlam vəziyyət yaranmış, prokurorluq orqanlarının fəaliyyəti, necə deyərlər, çərçivədən çıxmışdı. Yalnız 1993-cü ilin iyununda Heydər Əliyevin müstəqil dövlətimizin ali rəhbərliyinə qayıdışından sonra respublikada ictimai-siyasi sabitlik, qanunçuluq bərqərar edildi. Ümummilli liderin müdrikliyi ilə Azərbaycan müstəqilliyini itirmək və vətəndaş müharibəsi təhlükəsindən xilas oldu, qısa müddətdə dövlət və hakimiyyət böhranına, xaos və anarxiyaya son qoyuldu. Çoxsaylı dövlət çevrilişi cəhdlərinin və terror aktlarının qarşısı qətiyyətlə alındı. Eyni zamanda, ulu öndərin rəhbərliyi ilə reallaşdırılan islahatlar nəticəsində prokurorluq cəmiyyətdə öz nüfuzunu bərpa etməyə, yüksək ictimai etimad qazanmağa başladı.

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul edilən Azərbaycan Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə, zamanın tələbilə səsləşən məhkəmə-hüquq islahatlarının həyata keçirilməsinə, habelə prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və demokratikləşməsinə möhkəm təməl yaratdı. Əsas Qanunda ilk dəfə olaraq respublikamızın dövlət quruluşu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirildi, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi, həmçinin vəzifələri qanunvericilik qaydasında təsbit edildi.

Ulu öndər dövlət başçısı kimi daim inandığı və arxalandığı prokurorluq orqanları əməkdaşlarına qayğısını da heç vaxt əsirgəməyib. Bunun bariz ifadəsi olaraq dahi şəxsiyyət hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi barədə 17 iyul 1998-ci il tarixli sərəncam imzalayıb, əməkdaşlar yüksək dövlət mükafatları – orden və medallarla təltif edilib.

Azərbaycan prokurorluğunda demokratik, hüquqi dövlət quruculuğunun müasir tələblərinə cavab verən köklü islahatlar və səmərəli struktur dəyişiklikləri Heydər Əliyevin iştirakı ilə 26 aprel 2000-ci ildə keçirilən geniş müşavirədən sonra daha da sürətləndi. Prokurorluğun həyatında müstəsna rol oynayan həmin tarixi müşavirədə dövlət başçısının verdiyi tövsiyə və göstərişlərin icrası bu orqanın demokratik məzmunda yeniləşdirilməsinə, sistemdə mövcud neqativ təzahürlərin aradan qaldırılmasına, prokurorluq orqanlarının səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılmasına, qanunçuluğun möhkəmləndirilməsinə, cinayətkarlığa qarşı mübarizədə sistemin rolunun artırılmasına, eyni zamanda, kadrların peşəkarlıq səviyyəsinin yüksəldilməsinə əsaslı təsir göstərdi.

Ulu öndərin müstəqil dövlətimizə rəhbərliyi dövründə prokurorluq orqanlarının demokratik prinsiplərə əsaslanan, milli dövlətçilik ənənələrindən qaynaqlanan möhkəm hüquqi bazasının yaradılması da ardıcıl xarakter aldı. "Prokurorluq haqqında" Qanunun tələbləri əsas götürülərək, digər qanunvericilik aktları – "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluğun rəsmi embleminin təsviri" haqqında, "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim formasının təsviri" haqqında aktlar qəbul edildi, "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", habelə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi qaydaları haqqında" əsasnamələr təsdiqləndi, eləcə də prokurorluğun qanunla nəzərdə tutulan fəaliyyət istiqamətləri üzrə işinin düzgün təşkili üçün zəruri olan təşkilati-normativ tədbirlər həyata keçirildi. Bütün bunlar isə Azərbaycan prokurorluğunun demokratik dəyərlərə uyğun səmərəli və məqsədyönlü fəaliyyəti üçün möhkəm təməl yaratdı.

Ümummilli liderin müəyyənləşdirdiyi strateji inkişaf konsepsiyasını uğurla reallaşdıran və keyfiyyətcə yeni mərhələyə qaldıran Prezident İlham Əliyevin rəhbərliyi ilə 17 il ərzində ölkəmizdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində genişmiqyaslı işlər görülüb, prokurorluq sistemində sağlam mənəvi mühitin formalaşması istiqamətində prinsipial addımlar atılıb.

Prezident İlham Əliyev rüşvətxorluq və korrupsiya kimi ağır cinayətlərə qarşı həyata keçirilən tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunun tətbiq edilməsi barədə 3 mart 2004-cü il tarixli sərəncam imzalayıb. Həmin sərəncama əsasən, Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi yaradılıb.

Dövlətimizin başçısı 2008-ci il 27 sentyabr tarixli sərəncamla prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, müasir dövrün tələblərinə və yüksək beynəlxalq standartlara uyğun fəaliyyətinin yeni keyfiyyət müstəvisinə yüksəldilməsinə şərait yaradılması üçün "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009–2011-ci illər üçün Dövlət Proqramı"nı təsdiq edib. Azərbaycan Prezidenti ötən il aprelin 3-də isə "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" fərman imzalayıb. Bununla da vətəndaşların ədalət mühakiməsinə çıxış imkanları artırılıb, sahibkarlıq fəaliyyəti subyektlərinin məhkəmələrə müraciət imkanları asanlaşdırılıb və mübahisələrin məhkəmədənkənar həlli mexanizmlərinin təşviqi, dövlət resurslarının prioritet hesab olunan dövlət xidmətləri üzrə səmərəli və qənaətlə istifadə edilməsi, dövlət sektorunda bir sıra xidmətlərin müvafiq sahə üzrə ixtisaslaşmış özəl müəssisələrin yaradılaraq onlara ötürülməsi əsas hədəflər kimi müəyyənləşdirilib.

Adı çəkilən fərmanın icrası istiqamətində görülən işlərin davamı kimi, dövlət ittihamının daha səmərəli gerçəkləşdirilməsi, vahid istintaq-məhkəmə təcrübəsinin formalaşdırılması, ibtidai istintaqa prosessual nəzarəti reallaşdıran prokurorlarla dövlət ittihamının müdafiəsini həyata keçirən prokurorlar arasında qarşılıqlı əlaqələrin səmərəli təşkili məqsədilə "Elektron dövlət ittihamı" proqramı hazırlanaraq istifadəyə verilib.

Bütün bunlarla bərabər, prokurorluq orqanlarına aşkarlıq şəraitində, müsabiqə yolu ilə qulluğa qəbulun həyata keçirilməsinə xüsusi diqqət yetirilib, "Elektron hökumət" layihəsi çərçivəsində "Elektron sənəd dövriyyəsi" və "Elektron cinayət" proqramlarının yaradılması istiqamətində əhəmiyyətli addımlar atılıb, Baş Prokurorluğun "Elektron cinayət" proqramının Ədliyyə Nazirliyinin "Elektron məhkəmə" informasiya sisteminə inteqrasiyası prosesinə başlanılıb. Müraciətlərə baxılması və vətəndaşların qəbulu işinin səmərəliliyi daha da artırılıb. Rayon prokurorluqları müasir üslubda tikilmiş yeni inzibati binalarla təmin olunub.

Göründüyü kimi, son illər ərzində prokurorluqda yaradılan əlverişli şərait nəticəsində dayanıqlı ictimai-siyasi sabitliyin qorunması, dövlət maraqlarının müdafiəsi və cinayətkarlığa qarşı kəsərli mübarizənin təşkili, ən əsası isə insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi istiqamətində zəruri tədbirlər görülüb, kriminogen sabitliyə nail olunub, mənfi təzahürlərin qarşısı alınıb. Məqsədyönlü tədbirlər sayəsində Azərbaycan MDB və Şərqi Avropa məkanında ən təhlükəsiz və sabit ölkələrdən biri kimi tanınıb.

Hazırda ölkə rəhbəri tərəfindən mərkəzi və yerli icra hakimiyyəti orqanlarında genişmiqyaslı struktur islahatları aparılır, həmin qurumların qarşısında dövlət müstəqilliyini daha da möhkəmləndirmək, vətəndaş məmnunluğunu artırmaq kimi yeni mühüm tələblər qoyulur. Şübhəsiz ki, öz Prezidentinə güvənən, onun siyasətini dəstəkləyən Azərbaycan vətəndaşları da gerçəkləşdirilən tədbirləri ürəkdən bəyənir və dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirirlər.

Prezident İlham Əliyev mayın 1-də Baş prokuror Kamran Əliyevi videoformatda qəbulu zamanı pandemiya şəraitində sosial-iqtisadi sahələrdə, eləcə də qanunverici, icraedici və məhkəmə hakimiyyəti, habelə maliyyə sistemində dövlət idarəetməsinin səmərəliliyini artırmaq, ilk növbədə, vətəndaşların maraqlarına xidmət etmək, ölkənin davamlı inkişafını sürətləndirmək məqsədi daşıyan islahatlar barədə ətraflı söhbət açdı. Dövlətimizin başçısı nitqində bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac duyulduğunu diqqətə çatdırdı. Eyni zamanda, kadrların peşəkarlığının daim diqqət mərkəzində olması, bu vacib amillə bərabər, dövlətçiliyə sədaqət prinsiplərinin önə çəkilməsinin zəruriliyini xatırlatdı: "Çünki bu gün müstəqil dövlətimizin uğurlu yaşaması və möhkəmlənməsi, ilk növbədə, dövlətçiliyimizin möhkəmləndirilməsi ilə bağlıdır. Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin, müstəqilliyimiz daim möhkəmlənsin. Əlbəttə ki, istənilən sahədə kadrlar dövlətə, xalqa bağlı olmalıdırlar, vətənpərvər olmalıdırlar və onlar üçün dövlət maraqları hər şeydən üstün olmalıdır".

Cənab İlham Əliyev nitqində korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılmasını prokurorluq orqanları qarşısında vacib vəzifələrdən biri olaraq qoydu. Prokurorluq orqanları işçilərinin bundan sonra da Vətənə ləyaqətlə xidmət göstərəcəklərinə, dövlətin maraqlarının və qanunun aliliyinin təmin ediləcəyinə, bununla da ictimaiyyətin onların işindən razı qalacağına əminliyini bildirdi.

Möhtərəm Prezidentimiz yeni təyin olunan Baş prokuror Kamran Əliyevi videoformatda qəbul edərkən səsləndirdiyi fikirlər, xüsusilə "Biz elə etməliyik ki, Azərbaycan bundan sonra da uğurla inkişaf etsin, müstəqilliyimiz daim möhkəmlənsin. Əlbəttə ki, istənilən sahədə kadrlar dövlətə, xalqa bağlı olmalıdırlar, vətənpərvər olmalıdırlar və onlar üçün dövlət maraqları hər şeydən üstün olmalıdır" sözləri biz prokurorluq əməkdaşlarının məsuliyyət hissini daha da artırır. Buna görə də cənab İlham Əliyevin prokurorluq orqanlarına göstərdiyi yüksək qayğı və etimadı layiqincə doğrultmaq üçün qanunun aliliyi, insan və vətəndaş hüquq və azadlıqlarına dönmədən əməl olunması, habelə hüquq pozuntularına, o cümlədən, cinayətkarlığa, korrupsiyaya və rüşvətxorluğa qarşı daha ciddi mübarizə aparılması məqsədilə bütün zəruri tədbirlərin görülməsini bundan sonra da uğurla davam etdirəcək, daim Heydər Əliyev prinsiplərinə, dövlətə, dövlətçiliyə, xalqımıza layiqli xidmət göstərəcəyik.

***Pərviz İBAYEV,***
***Bakı şəhəri Nizami rayon prokuroru, baş ədliyyə müşaviri***